"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    8 aprel 2015-ci il    № 26 (1942)    Qiyməti 25 qəpik


## Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarına birdəfəlik maddi yardım verilməsi ilə bağlı Sərəncam imzalayıb

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 3-də 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında Sərəncam imzalayıb.***

AzərTAc xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 800, həmin müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqradın mühasirəsinin iştirakçılarına 400 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 8,3 milyon manat vəsait ayrılıb.

Sərəncamda Maliyyə Nazirliyinə həmin vəsaitin Dövlət Sosial Müdafiə Fondunun xüsusi hesabına köçürülməsi, Fonda birdəfəlik maddi yardımın nəzərdə tutulmuş şəxslərə çatdırılması tapşırılıb.

## Müharibə veteranları Prezident İlham Əliyevə onlara göstərdiyi yüksək qayğıya görə minnətdarlıq edirlər

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 3-də imzaladığı "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam veteranlar tərəfindən dərin razılıq hissi ilə qarşılanıb.***

AzərTAc xəbər verir ki, ehtiyatda olan general-mayor Dadaş Rzayev bununla əlaqədar Respublika Veteranlar Təşkilatı rəyasət heyəti adından dövlətimizin başçısına təşəkkür məktubu ünvanlayıb. Məktubda veteranlara qayğının əsasının hələ sovetlər dövründə ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğu bildirilir. Müstəqilliyimiz bərpa edildikdən sonra isə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderin imzaladığı ilk sənədlərdən biri olan "Veteranlar haqqında" Qanunda bu qayğının öz hüquqi əsasını tapdığı diqqətə çatdırılır.

Məktubda ulu öndərin veteranlara göstərdiyi qayğının bu gün də dövlətimizin başçısı tərəfindən ardıcıllıqla yerinə yetirildiyi razılıq hissi ilə qeyd edilir. "Biz bunu Sizin bu gün 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 800 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə 400 manat məbləğində birdəfəlik maddi yardım verilməsi barədə imzaladığınız Sərəncamda da görürük", - deyə məktubda vurğulanır.

Qeyd edilir ki, bu Sərəncam Böyük Vətən müharibəsi iştirakçıları tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanıb.

Məktubda veteranlar onlara göstərdiyi qayğıya görə Prezident, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlıq ifadə edir, ölkəmizin müstəqilliyi və gələcək rifahı naminə yorulmaz fəaliyyətində dövlətimizin başçısına uğurlar arzulayırlar. Məktubun sonunda Azərbaycan Prezidentinə müraciətlə deyilir: "Veteranlar həmişə Sizinlədir".

# Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 5-də Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfərə gediblər.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ər-Riyadın hərbi aerodromunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Burada Prezident İlham Əliyevin rəsmi qarşılanma mərasimi oldu.

Dövlətimizin başçısı İlham Əliyevi İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səud qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Azərbaycanın və Səudiyyə Ərəbistanının Dövlət himnləri səsləndi.

Səudiyyə Ərəbistanının dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səuda təqdim olundu.

Sonra İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səud tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi.

* * *

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səudun görüşü olub.

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Əl Səud Prezident İlham Əliyevi ölkəsində salamladı və bu səfərin uğurla keçəcəyinə əminliyini bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olundu, əməkdaşlığın inkişafı baxımından bu səfərin əhəmiyyəti yüksək qiymətləndirildi. İslam ölkələri arasında qarşılıqlı anlaşmanın və faydalı əməkdaşlığın inkişafının vacibliyi vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyinin və bir-birinə qarşılıqlı dəstək verdiyinin qeyd olunduğu görüşdə iqtisadi, xüsusilə neft-qaz, turizm, kənd təsərrüfatı sahələrində, eləcə də biznes dairələri arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı məsələlər müzakirə edildi.

Görüşdə Səudiyyə Ərəbistanının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həllinə tərəfdar olduğu vurğulandı.

* * *

Aprelin 5-də Ər-Riyadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığının Ticarət Palataları Şurasının sədri Əbdülrəhman Əl Zamil ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Söhbət zamanı neft və kimya sənayesi, neft-qaz, kənd təsərrüfatı məhsullarının birgə istehsalı, Səudiyyə Ərəbistanına və üçüncü ölkələrə ixracı imkanları ətrafında fikir mübadiləsi aparıldı. Azərbaycanın və Səudiyyə Ərəbistanının neft-kimya sənayesi şirkətləri arasında görüşlərin keçirilməsi ilə bu sahədə əməkdaşlıq imkanlarının araşdırılması məsələsi müzakirə olundu.

* * *

Aprelin 5-də Ər-Riyadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Səudiyyə Ərəbistanı Krallığının neft və minerallar naziri Əli Əl Naiminin görüşü olub.

Görüşdə ikitərəfli əməkdaşlığın yüksək səviyyədə olduğu qeyd edildi, Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı Krallığına səfərinin bu əlaqələrin daha da genişləndirilməsinə mühüm töhfə verəcəyi vurğulandı.

Söhbət zamanı dünya bazarında neftin qiyməti ilə bağlı da fikir mübadiləsi aparıldı. Həmçinin Səudiyyə Ərəbistanı şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı imkanların olduğu qeyd edildi. Həmin şirkətlərin ölkəmizdə həm kontraktor, həm də investor kimi fəaliyyəti üçün əlverişli mühitin olduğu vurğulandı, müxtəlif məsələlərə dair texniki təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsi, eləcə də "Cənub" qaz dəhlizi layihəsi ilə bağlı müzakirələr aparıldı.

* * *

Aprelin 5-də Ər-Riyadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığının maliyyə naziri İbrahim Əl Assaf ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın iqtisadiyyat, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsinə yaxşı imkan yaratdığı bildirildi. Hazırda yol tikintisi, su təchizatı və digər sahələrdə müxtəlif əməkdaşlıq layihələrinin həyata keçirildiyi qeyd edildi. Bu istiqamətlərdə fəaliyyətin davamı olaraq sosial sahədə, irriqasiya, kənd təsərrüfatı, kanalizasiya və digər sahələrdə müxtəlif layihələrin reallaşdırılması ilə bağlı müzakirələr aparıldı.

* * *

Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri çərçivəsində paytaxt Ər-Riyadda görüşlərini başa çatdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 6-da Ciddə şəhərinə gediblər.

Ciddə şəhərinin beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı və xanımı Ciddə şəhərində yüksək qonaqpərvərliklə qarşılandılar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Ciddədə İslam İnkişaf Bankı Qrupunun prezidenti Əhməd Məhəmməd Əli ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İslam İnkişaf Bankı arasında yüksək səviyyəli əməkdaşlıqdan məmnunluq ifadə edildi. Son on ildə Bank ilə ölkəmiz arasında səmərəli əməkdaşlığın qurulduğu, uğurlu layihələrin icra olunduğu bildirildi, Azərbaycanda gedən sürətli inkişaf proseslərinin əlaqələrimizin genişlənməsinə təkan verdiyi vurğulandı. Azərbaycan ilə İslam İnkişaf Bankının neft-qaz, elektrik enerjisi, su təchizatı, yol tikintisi, infrastruktur layihələrinin icrası, kənd təsərrüfatı və sənaye, sərmayə qoyuluşu sahələrində nümunəvi əməkdaşlıq etdiyi diqqətə çatdırıldı.

Söhbət zamanı ikitərəfli əməkdaşlığa digər tərəfdaşların da cəlb olunması ilə bağlı fikir mübadiləsi aparıldı.

* * *

Aprelin 6-da Ciddədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi İyad bin Amin Mədəni ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə İƏT arasında yüksək səviyyəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu görüşün əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi. İslam Əməkdaşlıq Təşkilatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli məsələsində tutduğu ədalətli mövqe yüksək qiymətləndirildi.

Söhbət zamanı ikitərəfli əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

**AzərTAc-ın materialları əsasında**

## Ermənistan rəhbərliyi bir daha sübut edir ki, regionda sülhün, sabitliyin bərqərar olmasında maraqlı deyil

***Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın "International Affairs" jurnalına verdiyi müsahibə ilə bağlı açıqlama yayıb.***

H.Hacıyev deyib ki, Ermənistan xarici işlər nazirinin Azərbaycana qarşı irəli sürdüyü əsassız iddialar danışıqlar prosesinin reallığı ilə ziddiyyət təşkil edir. Bu, beynəlxalq ictimaiyyəti aldatmağa yönəlmiş növbəti çarəsiz cəhddir.

ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən də dəfələrlə bəyan edildiyi kimi, mövcud status-kvo qəbuledilməzdir. Mövcud status-kvonun əsasını isə Ermənistanın Azərbaycana qarşı təcavüz və işğalı təşkil edir. Bu səbəbdən qəbuledilməz olan status-kvo ilk növbədə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin geri qaytarılması ilə dəyişdirilməlidir. 2014-cü ilin mayında ATƏT-in ABŞ-dan olan həmsədri Ceyms Uorlik münaqişənin həllinə dair Minsk qrupunun digər həmsədrləri tərəfindən də dəstəklənən altı bənddən ibarət plan təqdim etdi. Bu planın da başlıca elementi Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin geri qaytarılmasıdır. Minsk qrupunun həmsədrlərinin israrlı çağırışlarına baxmayaraq, Ermənistan böyük sülh sazişi üzərində işə başlamaqdan imtina edir.

Minsk qrupunun həmsədrlərinin bəyanat və çağırışlarını təhrif edən Ermənistan xarici işlər nazirinə xatırlatmaq istərdik ki, Minsk qrupunun həmsədrlərinin mandatına dair 1995-ci il 23 mart tarixli Budapeşt sənədində həmsədrlərin fəaliyyətinin əsasını BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təşkil etdiyi vurğulanır. BMT Təhlükəsizlik Şurasının qətnamələri isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ərazisi olduğunu təsbit edir, güc tətbiq edərək ərazi əldə etməsinin qəbuledilməzliyini vurğulayaraq, işğalçı qüvvələrin dərhal, tam və qeyd-şərtsiz zəbt olunmuş ərazilərdən çıxarılmasını tələb edir.

ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan humanizmdən kənar şəkildə itkin düşmüş şəxslər barədə məlumat mübadiləsindən imtina edir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 4000-dən artıq azərbaycanlı itkin düşmüş hesab edilir. Onların əksəriyyəti Ermənistan tərəfindən öldürülüb, işğal edilmiş ərazilərdə və Ermənistan ərazisində kütləvi məzarlıqlarda basdırılıb. Müasir DNT analizləri vasitəsilə onların kimlikləri müəyyən edilə və ailələrinə məlumat verilə bilərdi.

Hazırda davam edən vəziyyətə görə bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür. Ermənistan rəhbərliyi yürütdüyü destruktiv siyasətlə bir daha sübut edir ki, rəsmi Yerevan regionda sülhün, sabitliyin və öncədən proqnozlaşdırıla bilən vəziyyətin bərqərar olmasında maraqlı deyil.

**AzərTAc**

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Aprelin 6-da Bakı şəhərində sağlamlıq sahəsində təlim və əməkdaşlıq konfransı, aprelin 7-də Bakı şəhərində Azərbaycan-ABŞ ikitərəfli hərbi əlaqələrin razılaşdırılması konfransı keçirilib.

Aprelin 6-dan 8-dək İstanbul şəhərində (Türkiyə) hidroqrafiya və okeanoqrafiya mövzusunda əməkdaşlıq iclası, aprelin 8-dən iyunun 10-dək San-Antonio şəhərində (ABŞ) ABŞ Quru Qoşunları Kollecində "Komanda və Qərargah" kursu, aprelin 6-dan 17-dək Kəraçi şəhərində (Pakistan) kiçik zabitlər üçün taktika kursu, Nyuport şəhərində (ABŞ) "Kölgə fakültə" təşəbbüsü çərçivəsində təcrübə mübadiləsi, aprelin 6-dan iyulun 17-dək Rımniku-Vılça şəhərində (Ruminiya) partlayıcı maddələrin zərərsizləşdirilməsi üzrə təməl kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

# Hərbi Hava Qüvvələri gecə təlimləri keçirib



**4 aprel 2015-ci il.**

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin gecə və məhdud görmə şəraitində təlim uçuşları keçirilib.

Təlimlərdə iştirak edən Su-25 və MiQ-29 tipli təyyarələr havaya qalxma və yerə enmə, şərti hava və yer hədəflərinin məhv edilməsi, kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqları icra ediblər.



Gecə təlimlərində pilotlar silahların tətbiqinin əsas üsulları üzrə atışları yerinə yetiriblər.

Təlimlərdə qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "TurAz Şahini 2015" birgə təlimləri yekunlaşıb

**4 aprel 2015-ci il.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən Hərbi Hava Qüvvələrinin keçirdiyi "TurAz Şahini 2015" birgə təlimləri yekunlaşıb.

Təlimlərdə 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum, İl-76 hərbi-nəqliyyat təyyarəsi və 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopteri, eləcə də 104 nəfərlik heyət iştirak edib.

Təlimlər 3 istiqamətdə planlaşdırılıb və icra edilib.

Birinci istiqamətdə, qırıcı aviasiyanın Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus MiQ-29, Türkiyə Hərbi Hava Qüvvələrindən isə F-16 təyyarələri döyüş uçuşları ediblər.

Azərbaycan Respublikasının pilotları F-16, Türkiyə Respublikasının pilotları isə MiQ-29 təyyarələrində uçuşlar edərək şərti yaxın hava döyüşlərini keçiriblər.

Azərbaycan Respublikasının pilotu polkovnik-leytenant Xəlil Yusubov MiQ-29 təyyarəsinin taktiki-texniki xüsusiyyətlərindən tam istifadə etməklə, yüksək peşəkarlıq göstərərək şərti hava döyüşündə 2 ədəd F-16 təyyarəsi üzərində üstünlüyə nail olub.

İkinci istiqamətdə, hücum aviasiyasından Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 tipli təyyarələri, Türkiyə Hərbi Hava Qüvvələrinin F-4E hərbi təyyarələri ilə birgə hava uçuş tapşırıqlarını icra ediblər.

Azərbaycan Respublikasının pilotları F-4E, Türkiyə Respublikasının pilotları isə Su-25 təyyarələrində uçuşlar ediblər.

Üçüncü istiqamətdə, ordu aviasiyası qarşıya qoyulan tapşırıqları yerinə yetirib. Azərbaycan və Türkiyə Respublikaları Silahlı Qüvvələrinin xüsusi təyinatlı bölmələri müvafiq olaraq Mi-17 və AS-532 "Cougar" helikopterlərində müxtəlif növ döyüş tapşırıqlarını icra ediblər.



Təlimlərin sonuncu günü, plana uyğun olaraq, Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Akın Öztürk, komandanın birinci müavini Abidin Ünal və Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun rəhbərliyi altında aviasiya vasitələri praktiki döyüş atışlarını kompleks şəkildə yerinə yetiriblər.

MiQ-29 və F-16 təyyarələri hava düşməninə qarşı döyüş, yer hədəflərinə qarşı bomba və top atışları, Su-25 və F-4E təyyarələri isə düşmənin yer hədəflərinə bomba və top zərbələri endiriblər.

Ssenariyə uyğun olaraq, Azərbaycan və Türkiyə xüsusi təyinatlıları Mi-17 və AS-532 "Cougar" helikopterləri vasitəsilə şərti düşmən ərazisində qəzaya uğramış təyyarənin pilotlarının xilas edilməsi əməliyyatını icra ediblər.

Azərbaycan Hərbi Hava Qüvvələrinin və xüsusi təyinatlılarının peşəkarlıq səviyyəsi təlimlərin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Türkiyə Silahlı Qüvvələrinin NATO-nun aparıcı orduları sırasında olmasını nəzərə alsaq, hərbi qulluqçularımıza verilən qiymət Silahlı Qüvvələrimizin döyüş hazırlığının yüksək səviyyədə olmasının əyani sübutudur.

Hazırda Türkiyədə NATO çərçivəsində davam edən "İŞIK-2015" beynəlxalq axtarış-xilasetmə təlimlərində Azərbaycan Hərbi Hava Qüvvələrinin 4 ədəd Mi-17 döyüş-nəqliyyat helikopteri iştirak edir.

* * *

**7 aprel 2015-ci il.**

İllik hərbi əməkdaşlıq planına əsasən, Türkiyə Respublikasında keçirilən "TurAz Şahini 2015" birgə təlimlərində iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin təyyarələri Vətənə qayıdıb.

Təlimlərdə iştirak edən şəxsi heyət müxtəlif növ döyüş tapşırıqları, o cümlədən, şərti yaxın hava döyüşləri, birgə hava uçuşları, qəzaya uğramış təyyarənin pilotlarının xilas edilməsi əməliyyatı, şərti düşmənin yer hədəflərinə bomba və top zərbələri endirilməsi və praktiki döyüş atışlarını kompleks şəkildə yerinə yetiriblər.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Naxçıvanın hava məkanı etibarlı müdafiə olunur



***Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələri tərəfindən Naxçıvan Muxtar Respublikasının hava məkanının etibarlı qorunması işinin daim təkmilləşdirilməsi məqsədilə uğurlu tədbirlər həyata keçirilir.***

Əlahiddə Ümumqoşun Ordusunun Hava Hücumundan Müdafiə hissə və bölmələrinin döyüş atışlı taktiki təlimlərinin keçirilməsinə hazırlıq məqsədilə təlim mərkəzində OSA 1T zenit-raket komplekslərindən real sınaq atışları icra olunub.



Atışlarda Naxçıvan Muxtar Respublikasının coğrafi relyefinə uyğun yüksəklikdə, çətin dağlıq şəraitdə aşağı hündürlükdə uçan hədəflərin aşkar olunaraq məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Atış zamanı qarşıya qoyulan əsas məqsədə nail olunaraq hədəflər məhv edilib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə tam əhatə olunaraq maddi, mənəvi və texniki cəhətdən hərtərəfli təmin olunub.

Qondarma-separatçı rejimin "müdafiə naziri" Movses Akopyanın verdiyi məğlub xarakterli çıxışı, son zamanlar cəbhədə çoxlu sayda itkilərlə müşahidə olunan uğursuzluqlarının ört-basdır edilməsinə və ictimaiyyətin diqqətinin yayındırılmasına xidmət edən populist cəhddən başqa bir şey deyildir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, düşmənə qarşı döyüş əməliyyatlarında yüksək peşəkarlıq və döyüş qabiliyyətinə malik, eləcə də ən müasir silah və texnika ilə təmin edilmiş Azərbaycan hərbi qulluqçuları iştirak edir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**5 aprel 2015-ci il.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 36 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Ağdam rayonunun Şıxlar, Şuraabad, Mərzili, Cəvahirli, Füzuli rayonunun Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

**6 aprel 2015-ci il.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 30 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Ağdam rayonunun Şıxlar, Şuraabad, Cəvahirli, Novruzlu, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

**7 aprel 2015-ci il.**

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 57 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərindən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Ağdam rayonunun Şıxlar, Şuraabad, Cəvahirli, Kəngərli, Şirvanlı, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# Hər səngər bir qaladır

***Yolumuz zamanında yadelli işğalçılara qarşı döyüşə atılan cəngavər oğulların ruhunun əbədiləşdiyi bir məkanadır. Bu gün də burada oğulların torpaq qoxusu ciyərinə çəkilib, yurd sevgisi qəlbinə hopub. Onların tək istəyi erməni faşistlərindən torpaqlarımızı azad etmək, xalqımıza əmin-amanlıq, firavan həyat bəxş etməkdir.***

Burada igid döyüşçülərimiz erməni işğalçılarının gün ərzində dəfələrlə açılan atəş nöqtələrini susdurur, Vətən torpaqlarını mərdliklə qoruyurlar. Axı tarixdən öyrəndiyimiz məqamlar var ki, yenilməz qalalar - Bəzz qalası, Əlincə qalası, Qız qalası və digər tarixin şahidi olan qalalar ərlərə, ərənlərə məskən olub, oradan yağıları məhv ediblər.

Bu gün də Cavanşir, Babək, Xətai, Cavadxan, Mehdi, Həzi, Mübariz, Fərid ruhlu qəhrəmanlarımız səngərlərdə Vətənin müdafiəsində mərdliklə dayanaraq qəhrəmanlıq ənənələrimizi yaşadırlar.



Səngər yolu çınqıl daşlarla döşənib. Biz ön xəttə daxil olanda hərbçilərimiz havanın mülayim, sakit olmasından istifadə edərək zəruri tədbirlər həyata keçirirdilər. Döyüş növbəsi aparan əsgərlər də öz mövqelərində möhkəm dayanaraq düşməni izləyirdilər. Digər postlardakı səliqə-sahmanın, təmizliyin burada da şahidi oluruq. Əsgər yataqxanası müasir istilik sistemi ilə təchiz olunub.

Budur, zabit Qorxmaz Əbilov hərbçilərimizin postdakı vəziyyəti və qayğıları ilə maraqlanır. O əsgər yataqxanasına daxil olur, qeydlərini aparır, sonra bizimlə söhbətə başlayır, - ön xətdə xidmət aparan hərbçilərin döyüş, fiziki və mənəvi-psixoloji hazırlıqları yüksək səviyyədə olmalıdır, - deyir. - Əsgərlərimizdə vətənpərvərlik, yurdsevərlik hissi güclüdür. Siz əsgərlərimizlə söhbət etsəniz, bu fikrin şahidi olacaqsınız.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları Taleh Abdulkərimov və Nurlan Əhmədovla tanış oluram, hər ikisi 1994-cü ildə Qazax rayonunun Daşsalahlı kəndində anadan olublar. Onlar hərbi xidmətə yenidən qayıdaraq Vətənin müdafiəsində ayıq-sayıq dayanacaqlarına and içiblər. Hərbin sirlərinə dərindən yiyələnən Taleh və Nurlan söhbətlərində bildirirlər ki, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı torpaqlarımızı azad etmək əmrini verərsə, döyüşlərdə ön sıralarda olacaqlar.

Kiçik çavuş Əziz Osmanov isə 1988-ci ildə Qazax rayonunun Şıxlı kəndində doğulduğunu deyir. Onun da yenidən hərbi xidmətə qayıtmasında əsas məqsədi erməni quldurlarına qarşı mübarizə aparmaqdır. O bu gün ön xətdə düşmənin atəş nöqtələrini susdurmaqla doğma torpaqlarımızı qoruyur.

Manqa komandiri kiçik çavuş Kamil Vəliyev 1993-cü ildə Qazax rayonunun Ağköynək kəndində dünyaya göz açıb. Deyir ki, hərbin sirlərinə, atıcı silahlardan istifadə qaydalarına dərindən yiyələnib. "Buna görə komandirlərimə həmişə minnətdaram. Hərbi vərdişlərə yiyələnməyim təcrübəli komandirlərimin əməyinin nəticəsidir".

Dəfələrlə erməni kəşfiyyat-diversiya qruplarının basqın cəhdlərinin qarşısının alınmasında fəal iştirak edən Kamil poeziya vurğunudur. "Qazaxlı olasan, şeiri, sazı sevməyəsən", - deyir Kamil. Elə bu arada iki misra şeir deməyi ilə rəğbətimi qazanır.



Səngərləri gəzib qayıtdıqdan sonra bölük komandiri zabit Namiq Həşimovla söhbətimizi davam etdiririk. 1984-cü ildə Naxçıvanda doğulan hərbçi əvvəlcə Hərbi Liseydə, sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. O söhbətində qeyd edir ki, düşmən gecə-gündüz atəşkəsi pozur. Bir saat öncə də erməni işğalçıları iriçaplı pulemyotlardan mövqelərimizi atəşə tutmuşdular. Hərbçilərimizin ayıq-sayıqlığı sayəsində düşməni susdurduq. Bizim ordumuz düşmənin ordusundan qat-qat güclüdür. İstər peşəkarlıq, istərsə də müasir silah və texnika cəhətdən. Biz Laçınımızı, Zəngilanımızı, Qubadlımızı, Ağdamımızı, Füzulimizi, Kəlbəcərimizi və erməni qəsbkarlarının işğalı altında olan digər tarixi torpaqlarımızı azad edib, Şuşamızda qələbə paradını keçirəcəyik.

Əsgərlərdən İsmət Qədimov, Səfər Səfərov, Elvin Qurbanlı, Hüseyn Novruzov və başqaları səngərlərin - alınmaz qalanın yenilməz döyüşçüləridir. Vətən üçün qəhrəmanlıq tarixini onlar yazacaqlar. Mütləq yazacaqlar!

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

# “Silahlı Qüvvələrimiz hər bir tapşırığı icra etməyə qadirdir”

## Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsində kollegiya iclası keçirilib



***Aprelin 4-də Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin tabeliyində olan hərbi hissə, anbar, baza, mənzil-istismar hissələri və hərbi komendantlıqlarda 2015-ci ilin birinci rübünün döyüş və mənəvi-psixoloji hazırlığının, qoşun xidmətinin, hərbi intizamın təhlili və qarşıya qoyulmuş tapşırıqlara həsr olunan geniş kollegiya iclası keçirilib.***

Kollegiya iclasını giriş sözü ilə açan Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Qorxmaz Qarayev tədbirin gündəliyindəki məsələləri iştirakçıların diqqətinə çatdırıb.

Məruzə ilə çıxış edən general-mayor Q.Qarayev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan ətraflı söhbət açaraq bildirib ki, Silahlı Qüvvələr tam inkişaf dövrünü yaşayır. Son vaxtlar Azərbaycanın bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da inamlı addımlar atılır. Bu gün Silahlı Qüvvələrdə aparılan islahatlar və məqsədyönlü siyasətin nəticəsi olaraq ordumuz inkişaf edir, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Xüsusilə qeyd etmək istərdim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda aparılan islahatlar, hərbi hissələrin maddi-texniki və sosial-məişət şəraitinin müasir tələblər səviyyəsinə yüksəldilməsi həm orduda, həm də cəmiyyətdə rəğbətlə qarşılanır.

Çıxışına davam edən nazir müavini qeyd edib ki, Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvlərin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov 2015-ci tədris ilində qoşunların hazırlığı üzrə təşkilati göstərişlərində vurğulayıb ki, yüksək nailiyyətlərin əldə edilməsi üçün Silahlı Qüvvələrin aşağıdakı əsas məqsədləri Ali Baş Komandan tərəfindən müəyyən edilmişdir:



Dövlətin milli təhlükəsizliyinə qarşı ehtimal olunan hərbi təhdidlərin qarşısının vaxtında alınması və Azərbaycan Respublikasına istiqamətləndirilmiş təcavüzün dəf edilməsi məqsədi ilə qoşunların tələb edilən döyüşə və səfərbərliyə hazırlıq səviyyəsində saxlanılması;

Hərbi-siyasi vəziyyətin istənilən şəraitində Azərbaycan Respublikası ərazisinin bütövlüyü və toxunulmazlığının silahlı müdafiəsi üçün Silahlı Qüvvələrə zəruri olan qabiliyyətlərin daimi inkişafı və təkmilləşdirilməsi;

İşğal edilmiş torpaqları erməni təcavüzkarlarından azad etmək məqsədilə Silahlı Qüvvələrin fəal və qətiyyətli hücum əməliyyatlarına hazırlıq tədbirlərinin təşkili və həyata keçirilməsi.

Tədbir Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Maddi-Texniki Təminat Baş İdarəsinin tabeliyində olan hərbi hissə və müəssisələrə son səfərini əks etdirən videosüjetlərin nümayişi ilə başa çatıb.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

*Qabaqcıl təcrübə*

# Həm idmançı, həm zenitçi

***Səhərin erkən vaxtı şəxsi heyət idmanla məşğul olub, səhər yeməyinə getmişdi. Yerbəyerdən sonra döyüş hazırlığı məşğələləri başladı.***

Hərbi hissənin şəxsi heyəti müəyyən edilmiş mövqelərdə hava hücumundan etibarlı müdafiəni təmin edir. Bu məqsədlə hava hücumundan müdafiəçilər gecə-gündüz demədən döyüş növbəsi aparırlar.

Qeyd etmək lazımdır ki, hava hücumundan müdafiəçilər də verilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün lazımi peşə vərdişlərinə yiyələnməlidirlər. Ona görə döyüş hazırlığı məşğələlərində şəxsi heyət vacib hərbi keyfiyyətləri qazanmaq üçün əllərindən gələni əsirgəmirlər.

Bölmənin qazandığı nailiyyətdən söz açarkən təcrübəli döyüşçüləri yada salmamaq olmaz. Belə döyüşçülərdən biri gizir Ağəli Güləliyevdir. Uzun müddətdir ordu sıralarında xidmət edən Ağəli öz peşəsinin sirlərini yetərincə mənimsəmiş mütəxəssisdir.

- Gizir Güləliyev öz işini bilən, intizamlı və şəxsi heyət arasında hörmətə malik mütəxəssislərimizdəndir, - bizimlə söhbətində zabit Qamət Mahmudov dedi. - O, hərbi texnikanın, necə deyərlər, dilini mükəmməl mənimsəyib. Ağəli uzun müddətdir bu döyüş maşınında vacib tapşırıqları yerinə yetirir. O, qazandığı bilik və təcrübəsini gənc zenitçilərlə həvəslə bölüşür.

Ötən illərin təcrübəsi onun peşəkarlığının cilalanmasında böyük rol oynayıb. Hazırda gizir Güləliyevin komandiri olduğu özüyeriyən zenit qurğusu hərbi hissədə ən bacarıqlı döyüş heyətlərindəndir. Döyüş hazırlığı məşğələlərində, çöl dərslərində, təlimlərdə bu zenitçilər həmişə fərqləniblər.

Zenitçilərin uğurlarının sirri əslində, gizir Mahir Canəliyevin də dediyi kimi, bəllidir. Bunun üçün döyüşçülər hər şeydən öncə intizamlı olmalı, taktiki və ixtisas hazırlığını artırmalı, həmişə peşə vərdişlərini möhkəmləndirməlidirlər. Yalnız bu halda yaxşı mütəxəssis kimi yetişmək mümkündür. Ən başlıcası isə köksündə Vətəni həqiqi mənada sevən ürək gəzdirsən, heç bir çətinlik insanı qorxuda bilməz. Bu keyfiyyətlər isə gizir Güləliyevdə var.

Bir faktı qeyd edim ki, Təlim və Tədris Mərkəzinin idman sarayında yüksək nəticələr əldə etmiş idmançıların şəkilləri vurulub. Burada tanış bir hərbi qulluqçunun şəkli xüsusilə diqqətimi cəlb etdi. Bu, gizir Ağəli Güləliyevdir. O, yeniyetmə yaşlarından sambo və cüdo idman növləri ilə məşğul olub. 2003-cü ildə Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursuna qəbul edilib. Həmin il Silahlı Qüvvələrin cüdo birinciliyində üçüncü yeri tutaraq bürünc medala və fəxri fərmana layiq görülüb. Buna görə də lövhədə ən yaxşı cüdoçulardan biri kimi onun şəklini vurublar.

Hərbi hissədə bacarıqlı hərbçi kimi hörmət qazanmış özüyeriyən zenit qurğusunun komandiri gizir Ağəli Güləliyev Sumqayıt şəhərində doğulub boya-başa çatıb. Ordu sıralarında əsgəri borcunu verdikdən sonra Ağəli Güləliyev Silahlı Qüvvələrimizdə xidmətini davam etdirmək qərarına gəlib. Döyüş hazırlığı sahəsində əldə etdiyi nailiyyətlərə görə gizir Güləliyev bacarıqlı bir mütəxəssis kimi hərbi hissədə nüfuz qazanıb və dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb.



**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətən sənə də oğul deyir!



***Bir anlıq dağlardan duman seyrəlir. Önümdə, sağımda, solumda ərşə dirənən sıldırım qayalı uca dağlar görürəm. Zirvəsi göylərə çatan bu dağlar tarixən mərdlərin, ərənlərin oylağı, qıy vurub qanad çalan qartalların məskəni olub. Görəsən, indi nə olub bizə? Ulu babalarımızın miras qoyduğu yurd yerlərimiz nədən bir ovuc erməninin tapdağına çevrilib. Biz heç vaxt zəif olmamışıq. Xalqımız ta qədimdən döyüşkən olub və bu ruh indi də millətin içində yaşayır. Qədim dövlətçilik ənənəsinə malik olan xalqımıza qarşı çıxmaq təkcə erməninin işi deyil. Onların güclü havadarları olub və bu gün də havadarlarının köməyinə güvənirlər. Buna baxmayaraq xalqımız heç zaman torpaqlarının işğalı ilə barışmayacaq.***

Neçə illərdi bu dağlarda qərar tutan oğullarımız ərazilərimizi zəbt edən düşməni məhv etməyi qarşılarına məqsəd qoyublar. Onlar yetərincə təlim keçməklə məqsədlərinə nail olmağa çalışırlar. Zabit A.Əhmədovun təqdim etdiyi əsgər Xosrov Allahverdiyev də öz üzərinə düşən döyüş tapşırığını mükəmməl yerinə yetirmək imkanına malik olan bacarıqlı snayperdir. Xosrov deyir ki, bu dağlar mövqe seçmək baxımından olduqca əlverişlidir. "Hər dağın, qayanın arxası snayper üçün mövqedir. Biz bu mövqelərdə daim müşahidə aparır, erməniləri bir an belə gözdən qoymuruq".

Əslən gəncəli olan Xosrov müddətli hərbi xidmətini də düşmənlə təmas xəttində keçirib. Snayperin sirlərinə o zaman yiyələndiyini deyir. İndi isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi yenidən orduda xidmətini davam etdirir. Verilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirən vətənpərvər döyüşçünün əsas amalı Vətən torpaqlarının düşməndən azad olunmasıdır.

Bu gün Xosrov kimi yüzlərlə qeyrətli oğlumuz var ki, onlar düşmənlə təmas xəttində ayıq-sayıq xidmət edirlər. Torpaqlarımızda təxribat törətmək istəyən azğın düşmənə mərdliklə sinə gərirlər. Nəticədə dəfələrlə düşmən geri çəkilməyə məcbur olub. Bax, budur, Azərbaycan əsgərinin cəngavərliyi, igidliyi. Nə qədər ki, ermənilər torpaqlarımızdan çəkilməyib, belə mərd oğullarımızın barmağı silahının tətiyində olacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “Bacarıqlı döyüşçü şəxsi nümunədir”

***Təlim keçən əsgərlərin yanına getməyə hazırlaşdığımız ərəfədə zabit Vidadi Kərimovla görüşüb söhbət edə bildik. O dedi ki, şəxsi heyətin döyüş ruhu yüksəkdir. "Bir neçə gün əvvəl erməni işğalçıları müxtəlif istiqamətlərdən atəşkəs rejimini pozmağa cəhd göstərdilər. Mövqelərində ayıq-sayıq dayanmış döyüşçülərimiz dəqiq atəş zərbələri ilə düşməni susdurdular.***

Kapitan Rafiq Rzayevlə birlikdə təlim keçən şəxsi heyətin yanına yollandıq. Uzaqdan əsgərlərin gur səsi eşidilirdi.

Dağlar qoynunda təlim keçən minaatanların yanına çatanda məşğələnin gərgin anları idi. Heyət nəfərləri cəld və çevik hərəkətlərlə minaatan qurğusunu "səfər" və "döyüş" vəziyyətinə gətirirdilər. Bizi burada kapitan Xaliq Hüseynov qarşılayıb keçirilən təlim-məşqlərdən söz açdı:

- Müharibə şəraitində yaşadığımız indiki günlərdə biz hərbçilərin çiyinlərinə mühüm vəzifələr düşür. Ən başlıca vəzifələrimizdən biri də ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə hərbi bilikləri öyrətmək, döyüş vərdişlərini aşılamaqdır. Bu gün minaatan qurğusunun sirlərini öyrənən əsgərlər ordu sıralarına bir müddət əvvəl çağırılıblar. Son təlimlər göstərir ki, onlar qısa vaxtda lazımi bilik və vərdişlərə yiyələniblər.



Kapitan söhbətinə davam edərək xidmətdə fərqlənən əsgərlərdən də söz açdı. Bildirdi ki, heyət nəfərlərinin hamısı, bir qayda olaraq, tapşırıqların öhdəsindən bacarıqla gəlir. Belə əsgərlərdən Rüfət Səmədov, Cavid Mursalov, İslam Məmmədov, Rəhman Balakişiyev və başqaları həmişə verilən tapşırıqları bacarıqla icra edir, başqalarına da nümunə olurlar.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Yəmən: Səudiyyə Ərəbistanı Hadi tərəfdarlarına silah çatdırırlar



Yəməndə Səudiyyə Ərəbistanı tərəfindən bu ölkəyə endirilən hava zərbələrinə qarşı yeni etiraz aksiyaları keçirilir. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, Səna şəhərinin küçələrinə çıxan bir neçə min insanın əksəriyyəti keçmiş prezident Əli Abdullah Salehin tərəfdarlarıdır. Bu arada Yəməndəki böhranlı vəziyyətdən istifadə edən "Əl-Qaidə" qruplaşması ölkənin cənubunda yerləşən Mukalla şəhərindəki iri hərbi bazanı ələ keçirib. Yəməndə Səudiyyə Ərəbistanını, həmçinin "Əl-Qaidə"ni dəstəkləməkdə də ittiham edirlər. Eyni zamanda "ərəb koalisiyasının" Hərbi Hava Qüvvələri "Ənsar Allah" hərəkatının tərəfdarları olan husi-şiə üsyançılarının mövqelərinə hava zərbələrini davam etdirirlər. Səudiyyə Ərəbistanının hərbi təyyarələri isə yerli əhalidən təşkil olunmuş Abd Rabbo Mansur Hadinin tərəfdarları - könüllülərdən ibarət xalq müqavimət komitəsi döyüşçülərinə atıcı silah, sursat və rabitə vasitələri çatdırır.

## Amerikalı təlimatçılar Ukraynaya aprelin 20-də gələcək



Yerli hərbçilərə təlim keçmək üçün ABŞ təlimatçılarının Ukraynaya gələcəyi vaxt dəqiqləşib. Onların bu ölkəyə aprelin 20-də gələcəyi bildirilir.

AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Ukrayna və ABŞ hərbçiləri Lvov vilayətində təlim keçəcəklər. Bu barədə Ukrayna Prezidenti Administrasiyası başçısının müavini Valeri Çalıy məlumat verib. O, həmçinin Kiyevin Ukrayna-ABŞ əməkdaşlığının inkişafından razı qaldığını vurğulayıb.

## Ölüm cəzasına məhkum edilmiş şəxs 30 il sonra azadlığa buraxılıb



ABŞ-ın Alabama ştatında həbsxanada təxminən 30 il edam cəzasını gözləyən şəxs azadlığa buraxılıb. AzərTAc BBC telekanalına istinadla xəbər verir ki, 58 yaşlı Entoni Rey Hinton 1985-ci ildə Birmingem şəhərində iki restoran menecerinin qətlində günahkar bilinərək ölüm cəzasına məhkum olunmuşdu. Bütün bu illər ərzində məhkum günahkar olmadığını iddia edib. Nəhayət, keçən il onun işinə yenidən baxılması qərara alınıb. Yeni kriminal ekspertiza zamanı mütəxəssislər qətl yerindəki güllələrin Hintonun evində tapılmış revolverə aid olduğunu sübut edə bilmədiyindən məhkəmə işi bağlamaq məcburiyyətində qalıb.

Hintonun vəkili Brayan Stivenson müştərisinin mühakimə olunmasının səbəbini onun yetərli hüquq məsləhəti ala bilməməsi ilə izah edib.

## İranın nüvə obyektlərində tədqiqatlar dayandırılan kimi sanksiyalar ləğv edilməlidir



İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif dövlət televiziyasında çıxış edərək ölkəsinin Qərblə razılaşmasına dair müxtəlif fikir spekulyasiyalarına münasibət bildirib.

Nazir qeyd edib ki, razılaşmaya əsasən İranın nüvə obyektlərində aparılan tədqiqatlar dayandırılan kimi iqtisadi sanksiyalar da həmin an ləğv edilməlidir.

M.C.Zərif bəyan edib ki, əks təqdirdə İran nüvə proqramını həyata keçirmək üçün işlərini davam etdirəcək və heç kim bunun qarşısını ala bilməz.

Nazirin sözlərinə görə danışıqlar prosesi olduqca gərgin keçib. Buna baxmayaraq tərəflər razılığa gəliblər.

Bu minvalla cari ilin sonuna qədər bütün sanksiyalar aradan qaldırılacaq.

## Fransada məscidlərin sayının artırılması ideyası irəli sürülüb



Yaxın iki ildə Fransada məscidlərin sayının iki dəfə artırılması ideyası irəli sürülüb. Bu bəyanatla çıxış edən Fransa İslam Mədəniyyəti Şurasının rəhbəri, Parisin Böyük Məscidinin rektoru Dalil Bubakör bildirib ki, hazırda ölkədə 2200 məscid fəaliyyət göstərir. Bu, Fransada yaşayan yeddi milyon müsəlman üçün azlıq təşkil edir. Ona görə də iki ildə onların sayını iki dəfə artırmaq lazımdır.

Paris Böyük Məscidinin rektoru bu fikirlərini Fransa paytaxtının yaxınlığındakı Burje şəhərində ənənəvi olaraq keçirilən Fransa İslam Təşkilatının konfransında səsləndirib.

D. Bubakör Fransada namaz qılınan yerlərin kifayət etmədiyini, yarımçıq məscidlərin olduğunu, bəzilərinin isə tikintisinin başa çatdırılmadığını, bir çox meriyaların məscidlərin tikintisinə mane olduqlarını diqqətə çatdırıb.

## Ermənistanda ərzaq məhsullarının qiyməti durmadan artır



Ermənistan Dövlət Statistika Xidməti İdarəsinin məlumatına görə, yanvar ayından etibarən ərzaq məhsullarının qiyməti sürətlə artmaqdadır. Son bir ayda növbəti dəfə ərzaq məhsullarının qiyməti ümumilikdə 5,6 faiz artıb. Ayrılıqda isə süd məhsulları 5,8 faiz, qəhvə, çay və kakao 6,1-8,3 faiz, meyvə və şəkər 9,6 faiz, tərəvəz və kartofun qiyməti isə 18,2 faiz bahalaşıb.

Ərzaq məhsullarının və digər sahələrdə qiymətlərin durmadan artması əhalinin yaşayış səviyyəsinin ildən-ilə aşağı düşməsinə və haqlı narazılığına səbəb olur. Məmurların özbaşınalığından bezən və ölkənin gələcəyi ilə bağlı bədbin hisslərlə yaşayan sadə ermənilər yeganə çıxış yolunu vətənlərini tərk edib xarici ölkələrə üz tutmaqda görürlər.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

*Qələbə - 70*

# Yaddaşlarda əbədi qalacaqlar




**Böyük Vətən müharibəsi dövründə faşizmə qarşı mübarizə aparan və bu döyüşlərdə həlak olmuş oğullarımızın xatirəsi həmişə yaddaşımızda qalacaq.**

Bu yaxınlarda faşizm üzərində Qələbənin 70 illiyi keçiriləcək. Biz faşist işğalçılarına qarşı qanlı döyüşlərdə iştirak edən hər bir Azərbaycan oğlu və qızı qarşısında baş əyirik. Onların bu müharibədə göstərdikləri qəhrəmanlıqlar heç bir zaman yaddan çıxmayacaqdır. İşğalçılara qarşı döyüşlərdə iştirak etmiş soydaşlarımız çoxdur, onları bir-birindən ayırmaq olmaz. Onların şərəfli döyüş yolu haqqında çoxlu sayda əsərlər yazmaq olar. Bu insanlar bir çox xalqlarla birlikdə şərəfli həyat yolu keçiblər. Qələbə naminə ön və arxa cəbhədə əllərindən gələni əsirgəməyiblər, hətta canlarından keçiblər. Elələri də vardır ki, itkin düşüblər, doğma yurdlarına qayıda bilməyiblər. Müharibə amansızdır, onun saysız-hesabsız itkiləri olur. 9 May Qələbə günü hər bir ailə üçün əziz bir gündür. Bu qələbənin əldə edilməsində Azərbaycan xalqının böyük əməyi olub. Vətənin müdafiəsinə Azərbaycanın bütün bölgələrindən yola düşüblər. Onların arasında müxtəlif ixtisas sahibləri - həkim, rabitəçi, tibb bacısı, neftçi, fəhlə, hərbçi, təyyarəçi və s. olub. Gəncindən tutmuş yaşlı adamlara qədər Azərbaycanda yaşayan müxtəlif nəslin nümayəndələri bu döyüşlərdə iştirak ediblər. Müharibə illərində qəhrəmanlıq göstərdiklərinə görə minlərlə həmvətənimiz orden və medallarla təltif olunub, Həzi Aslanov, Ziya Bünyadov, İsrafil Məmmədov, Məlik Məhərrəmov, Qafur Məmmədov, Mehdi Hüseynzadə kimi yüzlərlə vətəndaşımız fədakarlıqla döyüşdüklərinə görə yüksək ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüblər.

Bundan başqa müharibənin ən qızğın çağında zavod və fabriklərimizdə gecə və gündüz çalışan zəhmətkeşlərimiz ön cəbhəni lazımi vəsaitlərlə təmin ediblər. Müharibə nəinki döyüş sahəsində, ideoloji sahədə də gedirdi. Faşist işğalçılarına qarşı mübarizə sahəsində ideoloji cəbhənin də həlledici rolu olub. Döyüşçülərə mənəvi ruh verən, onları qələbə qazanmağa ruhlandıran təbliğat və təşviqat vasitələrinin də rolu böyük idi. Minlərlə yazıçı, rəssam, bəstəkar ideoloji mübarizəyə cəlb olunmuşdu. Qəzet və jurnallar, şüarlar, plakatlar, vətənpərvərlik və qəhrəmanlıq təbliğ edən filmlər və mahnılar döyüşçüləri qələbəyə ruhlandırırdı.

Müharibə dövründə respublikamız öz iqtisadi potensialına görə Sovet ordusunun güclü arsenalına çevrilmişdi. Yüksək keyfiyyətli Bakı benzini, sürtkü materialları, silah-sursatlar, geyim və ərzaqla dolu eşelonlar cəbhəni təmin edirdi.

Böyük Vətən müharibəsi veteranları sıralarının seyrəlməsinə və yaşlı olmalarına baxmayaraq, bu gün də sıradadırlar. Onlar respublikamızın ictimai həyatında fəal iştirak edir, öz həyat və döyüş təcrübələrini gənclərə həvəslə öyrədirlər. Belə insanların zəhməti dövlətimiz tərəfindən həmişə qiymətləndirilir.

Yüz illər keçəcək, nəsillər dəyişəcək, lakin onların qəhrəmanlığı yaddaşlarda qalacaq.

**Svetlana NƏSİBQIZI,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*Əsgərin istirahət guşəsi*

# Nə yaxşı şeir varmış...

***Ürəyim məni səngərlərə çəkirdi. Zamanında qışın sazağında isindiyim, yayın bürküsünü hiss eləmədiyim səngərlərə. Heysiyyətimi, qürurumu nurlandıran səngərlərə. Ömrümün neçə-neçə ilinə urvat olmuş, ürəyimin də, sözümün də qırışığını açmış, neçə-neçə şeirimə masa olmuş səngərlərə...***



Ötən ilin oktyabrında polkovnik-leytenant Etibar Orucov hardansa, kimdənsə eşitdiyi bir şeirimi - "Özümə yazığım gəldi" - xatırlatmışdı. Umacaqlı baxışlarından mətləbini anlamışdım. "İncimə" demişdim. "Əsgərlərə şeirlər oxumamış dilim söz tutmaz...". Gülümsünmüşdü...

...Təmas xəttinin "beş addımlığındaydıq". Bu da bir azdan döyüş növbəsinə gedəcək əsgərlər. Əsgərlərin üzümüzdən üzülməyən baxışlarının sorğu-sualından sıxıla-sıxıla düşüncələrimi bürüyən gümanlara can əridirəm. Onları nələr düşündürdüyünü hiss eləyirəm. Onu da hiss eləyirəm ki, bu sorğu-sualların bətnində zərrəcə qınaq yoxdu, heysiyyət var, müharibənin yaraları var, şəhidlərin gileyli ruhlarının harayı var...

...Mayor Həsən Mahmudov məni açıq havada düzənlənmiş stullarda səliqəylə oturan əsgərlərə təqdim edir. Həm də şirin epitetlərlə. "Çoxunuz şairlə ilk dəfə üz-üzəsiniz. Dinləyin, soruşun. Rəşid Faxralı ehtiyatda olan mayordur. Hərbi xidmətə, əsgərlərin xidmətinə yaxşı bələddir", - deyir. Niyəsə, bir qədər sıxılıram; belə təqdimatdan sonra deyəcəklərimin məzmunu, məzmunu ifadə etmək üçün sözlərin seçimi, sözlərin ifadə forması, intonasiya...

Şair taleyimə ad olan həsəd aparılası tədbirdi...

Umacaqlı baxışlardan oxuduğum mətləblər ruhumu sıxmaqdadı. O mətləblər dili söz tutanların hamısını düşündürən, narahat eləyən mətləblərdi və bircə yozumu var: torpaq, torpaqlarımızın işğaldan nə zaman azad ediləcəyi intizarına düşəsi bir ümidlik işıq. Ruhumu bu gözlənilməz, ərköyün sıxılcımdan yenə söz xilas edə bilər - düşünürəm...

Əsgərlərin görüşündəyəm. Bu, indiyəcən gördüyüm şeirli saatlardan deyil. Bu, sözümüzün də keşiyində dayananlarla könül söhbətidi.

Şair taleyimin bənzərsiz, təkrarsız saatını yaşayıram. Təntiməsəm, özümü itirməsəm, dilim dolaşmasa, bir ömrə bəs olası könül xoşluğu yaşayacağam..

Müharibədən danışdım...

Torpaqdan, Vətəndən, Vətən sevgisindən danışdım...

Ömrü bizlərə ömür düsturu olan Azərbaycanın Milli Qəhrəmanları Yusif Mirzəyevdən, Vəzir Orucovdan, Koroğlu Rəhimovdan, Mübariz İbrahimovdan, Goranboy əməliyyatından az sonra tanıdığım, Ağdərə əməliyyatında döyüşçü ömrünə yaxından bələd olduğum Fəğan Əliyevdən, vaxtı ilə müəllimi olduğum Yaşar Göyüşovdan... danışdım. Həm də qədərsiz sevgilərlə, qürurla danışdım. "Bir ömür borcluyuq..." şeirini oxudum. Əsgərlərin poetik duyumu ürəyimi elə səmimiliklə telləndirməkdədi ki...

"Səngərlərdə sizin kimi oğulları görəndə həmişə özümdən utanmışam", - dedim. Əsgərlərdən biri mənim bu fikirlə tamamlanan "Özümə yazığım gəldi" şeirimi deyəndə keçirdiyim xoş duyğuları ifadə eləməyə çətinlik çəkirəm. Bir neçə ay əvvəl "Azərbaycan Ordusu" qəzetində dərc olunmuşdu, ordan yadında qalıb, düşündüm.

Şeirlər oxudum - Vətən ünvanlı, şəhid-şəhid qorunan torpaq ünvanlı şeirlər...

Şeirlər oxudum - əsgər qürurunun postamenti olan səngərlərə ad olan şeirlər...

Əsgər Maşallah Əsədullayevin gözlənilməz sualı düşüncələrimi əməlli-başlı silkələdi:

- Hərbçi Rəşid, jurnalist Rəşid, şair Rəşid. Hansı ilə daha çox qürurlanmısınız?

Nə deyəydim? Bu düşündürücü sualı necə cavablandıraydım? Həm də səmimi olmaqla.

- Poeziya da, jurnalistika da duyğu məsələsidi, hərbçi - vətəndaşlıq. İxtisasım etibarilə jurnalistəm. Duyğularım mənə şeirlər yazdırır. Hərbçi olmağım Vətənə borcumla bağlıdı. İndiki "Azərbaycan Ordusu" qəzeti ilk olaraq "Xalq Ordusu" adıyla nəşrə başlayanda məni də ora dəvət elədilər. Böyük həvəslə, sevgilərlə gəldim. O gün həyatımın axarını dəyişdirdi. Taleyimdən gileyli deyiləm. Yəni hərbçi olmağımla həmişə qürurlanmışam. Bu mənada vətəndaş Rəşid Faxralını daha çox sevirəm. Hərbçi olmaq ən böyük vətəndaşlıq olduğu üçün - dedim.

Əsgər Tural Allahverdiyevin "Hərbçi olmaq şərəfdi, yoxsa şairlik?" sualını illərimin sınağı bilirəm. Bu görüşün səmimiliyinə xəyanət eləməzdim. Bacarmazdım. "Şair sözün keşikçisidi, hərbçi - torpağın, Vətənin. Söz də fərdin, şəxsin ruhunun ünvanı olan torpağın, Vətənin barıdı. Hamı kimi şair də hərbçi ömrünə küsənir" - dedim. İnsafən haqlıydım...



"Müharibə" poemasından oxuduqlarımdan duyğulanan əsgərlərin duyumunun incəliyi mənə qədərsiz könül xoşluğu verdi; şeirin aşıladığı məzmun əsgərlərin baxışlarında çırpındıqca çırpınırdı. Nə danım, bir qədər kövrəldim də:

***Belə gəldi qəza-qədər...***
***Gözlərimdən zərrə gedib***
***Şəhidlərin sayı qədər...***
***Bir zərrəsi***
***Bağanıs-Ayrımda***
***yananlarla yandı,***
***Bir zərrəsi***
***Xocalıda donanlarla dondu...***

Əsgər Kənan Alxaslının "Yaza bilmədiyiniz şeir olubmu?" sualını mənə neçə illər əvvəl qızım vermişdi. Onda gülümsünmüşdüm. İndi etiraf etməli idim: Çox olub. 23 il əvvəl. Xocalı faciəsində əsir düşməmək üçün özünü xəncərlə vuran Səmayə haqqında. Şeir yaza bilməmişdim, hekayə yazmışdım. 23 ildən sonra. "Ulduz" jurnalında dərc olundu.

Kənan çəkinə-çəkinə hekayəni oxumaq istədiyini bildirdi. Göndərəcəyimə söz verdim...

"...sonuncu nəfəsdə Rəşid", "Dünya beşgünlük deyil", "Bu taydan o taya körpü varıydı", ... Şeirlər əsgərlərin xoşuna gəldimi, şeir diliylə onlara nəsə deyə bildimmi?..

"Göyərdək" şeirini sağollaşma əvəzi bildim:

***Torpaq kəlməsini,***
***Vətən sözünü***
***Ürəkdə cücərdib***
***başda göyərdək...***

...Tək ondan təsəlli tapıram ki, əsgərlərlə səmimiyyətlə mətləblər aldıq, mətləblər verdik. Vətən, torpaq ünvanlı mətləblər...

Ürəyim məni səngərlərə çəkirdi, getdim. Üz tutalğacım şeir idi..

Nə yaxşı şeir varmış...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**kiçik çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İdman

## "Bakı-2015" ilk Avropa Oyunlarının təbliğat videoçarxı yayımlanıb



Birinci Avropa Oyunlarının "Bakı-2015: Böyük yarışa hazır olun!" adlı təbliğat videoçarxı yayımlanıb. AzərTAc xəbər ki, idman dünyasına ən mühüm hadisə kimi daxil olan Avropa Oyunları haqqında videoçarx Joel Pressiqin rəhbərliyi ilə hazırlanıb. Avropa Oyunları üçün çəkilmiş ilk təbliğat filmində "Bakı-2015"-in ulduzları və Oyunların proqramına daxil olan idman növləri təbliğ edilir. Videoçarxda, həmçinin Azərbaycan paytaxtının gözəlliyini, şəhərimizin qədim və müasir memarlıq abidələrini - Qız qalasını, Atəşgah məbədini, Heydər Əliyev Mərkəzini, Hökumət evini, "Alov qüllələri" kompleksini əks etdirən görüntülər təqdim olunur.

## Kikboksinqçimiz 21-ci dəfə dünya çempionu adını qazanıb



Portuqaliyanın Vaqos şəhərində kikboksinqin WCA (Dünya Döyüş Növləri Assosiasiyası) versiyası üzrə dünya çempionatı keçirilib. AzərTAc xəbər verir ki, mundialda lou-kik versiyası üzrə mübarizə aparan Eduard Məmmədov (60 kq) 21-ci dəfə dünya çempionu adını qazanıb. Çempionatda 40 ölkəni təmsil edən idmançılar birincilik uğrunda mübarizə aparıblar.

## "Prezident Kuboku" uğrunda beynəlxalq reqatada üç qızıl medal



Mingəçevirdəki "Kür" Olimpiya İdman Mərkəzində "Prezident Kuboku" uğrunda beynəlxalq reqata başa çatıb.

AzərTAc xəbər verir ki, kayakçıların mübarizəsində Mirnazim Cavadov 1000, 500 və 200 metr məsafəyə yürüşdə hamıdan güclü olub. Kanoeçilərin birnəfərlik qayıqla 1000 metr məsafəyə yürüşündə Taras Matviyçuk 4 dəqiqə 12 saniyə nəticə ilə qalib olub. 200 metr məsafəyə yürüşdə isə Valentin Demyanenko finişə 41 saniyəyə çataraq qalib olub.

Nəhayət, akademik avarçəkənlərin birnəfərlik qayıqla 2000 metr məsafəyə yürüşündə Aleksandr Aleksandrov 6,56 saniyəyə finişə çataraq qalib olub.

## Azərbaycan idmançısı "KOK-King of Kings World" Qran-pri turnirinin qalibi olub



Moldovada K-1 üzrə "KOK-King of Kings World" Qran-pri turniri keçirilib.

AzərTAc xəbər verir ki, turnirdə Azərbaycanı iki idmançı təmsil edib. 75 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Tural Bayramov Moldova döyüşçüsü Sergey Morariylə görüşdən qalib ayrılıb. T.Bayramov döyüş müddətində rəqibə heç bir şans verməyərək parlaq qələbə qazanıb. Digər idmançımız Ruslan Kobzev (84 kq) moldovalı Denis Apavaloa ilə döyüşdə məğlub olub.

Qeyd edək ki, turnirdə qələbə qazanan Tural Bayramov gecənin əzmkar döyüşçüsü seçilib.

## Azərbaycan güləşçiləri İstanbulda iki medal qazanıblar



İstanbulda yunan-Roma güləşi üzrə Vehbi Emrenin xatirəsinə həsr olunan turnirdə Azərbaycan millisi iki medal qazanıb.

AzərTAc xəbər verir ki, 21 ölkədən 250 güləşçinin iştirak etdiyi yarışda 59 kiloqram çəki dərəcəsində mübarizə aparan millimizin üzvü Elman Muxtarov bütün rəqiblərindən üstün olub və turnirin qızıl medalını qazanıb.

Taleh Məmmədov isə bürünc medala sahib olub. Bürünc medal uğrunda görüşdə Soslan Daurovu məğlub edən güləşçimiz fəxri kürsünün üçüncü pilləsində yer alıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Polşadan qələbə ilə



***Azərbaycan pəhləvanlarının mötəbər beynəlxalq yarışlarda qələbələr qazanmasına və üçrəngli bayrağımızı yüksəkliklərə qaldırmasına artıq vərdiş etmişik. Ölkəmizdə idmana göstərilən diqqət və qayğının nəticəsini idmançılarımızın əldə etdiyi uğurlarda görürük.***

Bizim üçün xoşdur ki, beynəlxalq yarışlarda müvəffəqiyyət qazanaraq Vətənimizə qayıdan idmançılar arasında ordumuzda çalışan insanlar da var. Daha bir xoş sorağı Polşanın Veliçko şəhərindən almışıq. Bu günlərdə idmanın döyüş növləri üzrə həmin şəhərdə beynəlxalq turnir başa çatıb. Həmin yarışda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin fiziki hazırlıq və idman kafedrasının müəllimi Orxan Məmmədli üçüncü yerə layiq görülüb və bürünc medal qazanıb.

Zəngilan rayonunda dünyaya gəlmiş Orxan Məmmədli Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur. Müxtəlif illərdə dünya və Avropa çempionu adını qazanıb, dördüncü dan qara kəmər sahibidir. Hazırda o, öz bilik və təcrübəsini böyük öndərin adını daşıyan hərbi təhsil ocağında gənc kursantlara öyrədir.

Polşada qazandığı qələbə münasibətilə onu təbrik edir, tədrisdə və idmanda ona uğurlar arzulayırıq.

**"Azərbaycan Ordusu"**

# Sabahın layiqli döyüşçüləri

***Təhsil sahəsinə göstərilən qayğı məktəblərimizin uğurlu fəaliyyətinə etibarlı zəmin yaradır. Səmərəli fəaliyyəti ilə tanınan təhsil ocaqlarımızdan biri də Naxçıvan Qarnizonunun tam orta məktəbidir.***



Hazırda bu məktəbdə 500 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 55 müəllim məşğul olur. 2013-2014-cü tədris ilində bu tam orta məktəbi 36 məzun bitirib ki, onlardan 30 nəfəri ali məktəblərə qəbul olunub. Tələbə adını qazanan məzunlardan 14 nəfəri 500-700 bal toplayıb. Məktəbin 6 yetirməsi isə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub.

Burada uşaq, yeniyetmə və gənclərin fiziki-mənəvi sağlamlığı, təhsilə, informasiya-kommunikasiya texnologiyalarına yiyələnmələri, asudə vaxtlarının səmərəli təşkili istiqamətində məqsədyönlü tədbirlər görülür. Təbii ki, gənc nəslə yaradılan hərtərəfli şərait onların fəaliyyətlərinə də etibarlı zəmin yaradır. Belə ki, məktəblilər asudə vaxtlarında tam orta məktəbdə keçirilən tədbirlərdə fəallıq nümayiş etdirirlər. Şagirdlərin hazırladıqları müxtəlif əl işləri diqqəti cəlb edir. Onlar öz uşaq təxəyyüllərində canlandırdıqları mövzuları yaradıcılıqlarında əks etdirə bilirlər.

Naxçıvan Qarnizonunun tam orta məktəbinin şagirdləri həm məktəbdaxili, həm də ümumtəhsil məktəbləri arasında keçirilən müxtəlif turnir, yarış və müsabiqələrdə birincilik uğrunda mübarizə aparırlar. 20 Yanvar və Xocalı faciələri ilə əlaqədar keçirilən rəsm müsabiqələrində də məktəbin şagirdləri fəallıq nümayiş etdiriblər.

Əl işlərində ən çox toxunulan mövzu hərbi vətənpərvərlikdir. Bu da xüsusi əhəmiyyətə malikdir. Çünki bu gün əlində qələm, qarşısında kitab-dəftər parta arxasında əyləşən şagirdlər sabah düşmənlə üz-üzə mövqelərdə Vətənin müdafiəsində ayıq-sayıq dayanan əsgərlər olacaqlar.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

---

***Qaradağ rayon Ş.Əmirov adına 222 nömrəli tam orta məktəbin şagirdləri "N" hərbi hissəsinə tez-tez gəlirlər. Sabahımızın döyüşçüləri burada silah-sursatla, əsgər həyatı ilə tanış olur, özlərini gələcək xidmətə hazırlayırlar.***

Məktəblilər bu günlərdə yenə də hərbi hissənin qonağı olublar. Onların gəlişi barədə məlumat verən polkovnik-leytenant Elsevər Orucov bildirdi ki, şagirdlərin hərbi hissəmizə hər gəlişi onlar üçün toy-bayram olur.

"Məktəblilər hərbi texnikalara, silahlara maraqla tamaşa edirlər. Bu dəfə gəlməkdə məqsədləri avtomat silahının sirlərini öyrənməkdir. Hərbi hissə komandirinin göstərişinə uyğun olaraq məktəblilər üçün hərtərəfli şərait yaratdıq. Şagirdlər avtomat silahını həvəslə söküb-yığdılar. Bir neçə gündən sonra hərbi hissəmizdə Qaradağ rayon məktəbliləri arasında "Şahin" hərbi idman oyunlarının birinciliyi keçiriləcək. İndi məktəblilər həmin yarışa hazırlaşırlar. İnanıram ki, hərbi hissəmizdə hazırlıq keçən bu şagirdlər birincilikdə layiqli yer tutacaqlar".

**"Azərbaycan Ordusu"**

Baş leytenant Bağırov Bahadur Səməd oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 333
Nüsxə 4600